**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**ЖАЛЯ ГУСЕЙН гызы ПАШМФОАРОУШ**

# ПСИХОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ ВЗАИМОВЛИЯНИЯ ПОЗНАВАТЕЛЬНОЙ ДЕЯТЕЛЬНОСТИ И ПОВЕДЕНИЯ НАРКОМАНОВ

6107.01- Общая психология

## А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание ученой степени доктора философии по психологии**

**Баку – 2014**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**JALƏ HÜSEYN QIZI PƏŞMFURUŞ**

# NARKOMANLARIN İDRAK FƏALİYYƏTİ İLƏ DAVRANIŞININ QARŞILIQLI TƏSİRİNİN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

6107.01 – Ümumi psixologiya

Psixologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2014**

İş Bakı Dövlət Universitetinin Psixologiya kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: psixologiya üzrə elmlər doktoru,əməkdar elm xadimi, professor **Əkbər Salman oğlu Bayramov**

psixologiya üzrə elmlər doktoru, professor **Elnarə İbrahim qızı Şəfiyeva**

Rəsmi opponentlər: psixologiya üzrə elmlər doktoru, professor **Ərəstun Təriş oğlu Baxşəliyev**

psixologiya üzrə fəlsəfə doktoru **Lamiyə Mehdi qızı Qurbanova**

Aparıcı təşkilat: **Bakı Slavyan Universitetinin Pedaqogika və psixologiya kafedrası**

Müdafiə "_29__" "____11_____" 2014-cü ildə saat "___" da Bakı Dövlət Universitetinin nəzdində psixologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən FD.02.014 Dissertasiya şurasının iclasında olacaqdır.

Ünvan: AZ 1148, Bakı şəhəri, Z.Xəlilov küçəsi 23, II korpus, auditoriya 901

Dissertasiya ilə BDU-nun elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "___" "_________" 2014 - cü ildə göndərilib.

FD. 02.014 Dissertasiya şurasının elmi katibi psixologiya üzrə fəlsəfə doktoru, dosent **Rəşid Vəkil oğlu Cabbarov**

Sifariş N 1006; tiraj 100
“MBM” nəşriyyatının mətbəəsində
çap olunmuşdur

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Müasir dövrdə insanın həyat şəraitinin yaxşılaşmasına, sosial-iqtisadi və mədəni inkişafın yüksəlməsinə, hüquq-mühafizə orqanlarının fəaliyyətinin artırılmasına, tibb elminin yeni nailiyyətlərə çatmasına baxmayaraq narkomaniya və narkotik maddələrdən istifadə özünün pik nöqtəsinə çatmaqdadır. Demək olar ki, kütləvi informasiya vasitələrində təşkil olunmuş maarifləndirmə işləri, sosial işlərin və narkomaniyanın aradan qaldırılmasına yönəlmiş regional və beynəlxalq tədbirlərin günügündən artırılması da bu prosesin qarşısını ala bilmir. Dövrün insan həyatına son qoyan xəstəlikləri ilə müqayisədə narkomoniya daha çox insanı həyatdan aparır. Onların əksəriyyəti yeniyetmə və gənclərdir.

Əsrin bəlası sayılan narkomaniya və narkotik vasitələrdən istifadə bütün sahələrə, o cümlədən ictimai həyatın ritminə neqativ təsir göstərir. Hazırda bəşəriyyətin ən təhlükəli problemi olan narkomaniya bütün dünyanın diqqətini özünə cəlb etməklə yanaşı, bu sahədə ciddi elmi araşdırmalar aparılmaqdadır. Narkomaniya ilə mübarizə təsadüfən dövlət əhəmiyyətli məsələ hesab olunmur. Onların hesabına müəssisə və idarələr, bütünlükdə isə dövlət böyük zərər çəkir, onun maddi və mənəvi resursları dağılır.

Narkotik vasitələrdən sui-istifadə edən şəxslərdə təhsilə münasibət dəyişir, əməyin məhsuldarlığı aşağı düşür, ümumilikdə isə işə, ailəyə, dostlara və cəmiyyətə qarşı maraq tamamilə itmiş olur. Bu baxımdan onunla mübarizə aparmaq, onun aradan qaldırılması yollarını müəyyənləşdirmək bu gün bütün bəşəriyyətin qarşısında duran çox mühüm məsələlərdən biri hesab olunur.

Qeyd etmək lazımdır ki, narkomana çevrilən insanların bir qismi məhz stressli və gərgin vəziyyətdən çıxmaq, gündəlik qayğılardan azad olmaq üçün narkotik vasitələrə aludə olurlar. Digər qismi isə bu maddələrdən təsadüfi istifadə zanmanı onun aludəçisinə çevrilənlərdir. Nəzərə almaq lazımdır ki, narkomaniya yalnız sosial bəla deyil, o həm də psixoloji xəstəlikdir. Bir xəstəlik kimi narkomaniya bəzən istedadlı və səriştəli mütəxəsisləri yaradıcı əməkdən məhrum etməklə kifayətlənmir, onların həyatdan vaxtsız köçməsinə şərait yaradır. Narkomaniyaya orqanizmdə funksional və orqanik pozuntular yaratmaqla yanaşı əmək fəaliyyətinə də mənfi təsir göstərir.

Aparılmş tədqiqatlar göstərir ki, müxtəlif ölkələrdə narkomaniyanın birinci mərhələsində üzrsüz işdən qalmalar 17,1 gündürsə, ikinci mərhələdə bu 32,4 günə çatır. Əgər xəstəlikləri və «üzürlü səbəbləri» də bura əlavə etsək, onlar ilin yarısından çoxunu istehsalatdan kənar vəziyyətdə qalırlar. Bir sözlə narkotik vasitələrdən sui-istifadə edən şəxslər düşünməyən,

xarici aləmlə əlaqəsi azalan, əməyə və zəhmətə qarşı marağı itən və motivasiya-tələbatlar sisteminin dəyişkənliyi ilə seçilən şəxslərə çevrilirlər. Bununla yanaşı narkotik vasitələrdən istifadə qətl hadisələrində, soyğunçuluq, zorakılıq və s. kimi cinayətlərin meydana gəlməsində əsas amil kimi çıxış edir. Narkotik vasitələrdən istifadə edənlər onu əldə etmək üçün müxtəlif yollara əl atır, hətta cinayətkar olmaqdan belə çəkinmirlər.

Faktlar göstərir ki, hər hansı ölkədə törədilən cinayətin sayı və ağırlığı istifadə edilən narkotik vasitələrin miqdarı ilə düz mütənasibdir. Bütün bunlar göstərir ki, narkomaniya ilə mübarizə günü tələbidir və onun psixoloji mexanizmlərinin araşdırlması olduqca aktualdır. Qeyd olunan cəhətləri nəzərə alıb problemin tədqiqat obyekti kimi seçilməsini məqsədəuyğun hesab etmişik.

**Mövzunun işlənilmə səviyyəsi**. Narkomaniyanın meydana çıxdığı dövrdən etibarən problem daima tədqiqatçıların diqqət mərkəzində olmuşdur. Nəzərə almaq lazımdır ki, narkomaniyanın daha çox etimologiyası, patogenezi və müxtəlif psixi və somatik xəstəliklərlə əlaqəsi öyrənilmiş, onun psixoloji cəhətləri sistemli tədqiq olunmamışdır. Amma bununla yanaşı vurğulamaq yerinə düşərdi ki, narkomaniya birbaşa olmasa da, vasitəli şəkildə Azərbaycan psixoloqları tərəfindən tədqiq edilmişdir.

İdrak proseslərinin inkişafı ilə bağlı bir çox amillərin rolunu öyrənən Azərbaycan tədqiqatçıları (Əliyev B.H., Bayramov Ə.S., Əlizadə Ə.Ə., Baxşəliyev Ə.T., R.İ, Qədirova R.H., Hüseynova G.Q. və b.) narkomaniyanın bu proseslərə təsirini öyrənməyə çalışmışlar. Azərbaycan psixoloqu O.Vəlməmmədovanın narkomaniyaya həsr etdiyi tədqiqatı xüsusi vurğulamaq olar.

Narkotik maddələrdən istifadə zamanı motivasiya sferasının, emosional-şəxsiyyət münasibətlərinin dəyişməsi ilə bağlı məsələlər rus psixoloqlarından E.B.İvanov, S.B.Beloqurov,S.B.Berezin, K.S.Liseçiski, İ.A.Bilibin, D.P.Dvornikox, V.V.Dunayevskiy, B.D.Styajkin, O.B.Zaytçeva və başqalarının əsərlərində geniş təhlil olunmuşdur. Lakin bütün bunlara baxmayaraq narkomanların idrak fəaliyyətinin və davranış tərzinin araşdırılmasına xüsusi tədiqaqtlar həsr olunmamışdır. Bu da problemin aktuallığından xəbər verir.

**Tədqiqatın obyektini** 20-40 yaş arasında narkotik maddə qəbul edən və onun qəbulundan imtina edən insanlarda narkomaniyanın təzahür xüsusiyyətləri təşkil edir.

**Tədqiqatın predmetini** narkotik maddə qəbul edən, onun qəbulundan imtina edən və sağlam şəxslərdə idrak proseslərinin dəyişilmə dinamikası və davranış tərzinin formalaşmasının psixoloji mexanizmləri təşkil edir.

**Tədqiqatın məqsədi**. Tədqiqatda qarşıya qoyulmuş başlıca məqsəd

xüsusi metodikaların köməyi ilə narkomanların və narkotik maddələrdən imtina edən adamların şəxsiyyət xüsusiyyətlərinin, idrak proseslərinin və davranış tərzinin müqayisəli təhlilini aparmaq, narkomaniyanın yaranmasına təsir göstərən psixoloji amilləri müəyyən etmək, narkomaniyaya meylliyi aşkar etmək və onun aradan qaldırılması üçün zəruri olan tövsiyələr hazırlamaqdan ibarətdir.

**Tədqiqatın fərziyyəsi.** Narkotik vasitələrdən istifadə edənlərin, sağlam şəxslərin və narkotik maddələrin qəbulundan imtina edənlərin davranış tərzində və idrak proseslərində baş verən dəyişikliklər bir sıra amillərlə yanaşı, onları təhsil səviyyəsindən, ailənin maddi vəziyyətindən, ailədaxili münasibətlərin xarakterindən, narkomaniya haqqında biliklərdən və özünüqiymətləndirmənin adekvatlıq dərəcəsindən də asılıdır.

Əsas fərziyyəyə uyğun olaraq bir köməkçi fərziyyə də götürülmüşdür:

- Sağlam insanların, narkotik vasitələrdən istifadə edənlərin və narkotik maddələrin qəbulundan imtina edənlərin idrak proseslərində, xüsusilə də hafizə proseslərində, psixoloji vəziyyətində fərqli cəhətlər özünü göstərə bilər.

**Tədqiqatın vəzifələri**. Qarşıya qoyulmuş məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr müəyyən edilmişdir:

1. Poblemlə bağlı mövcud elmi ədəbiyyatın təhlili, mövzunun öyrənilməsinə həsr olunmuş istiqamətlərin müəyyən meyarlar əsasında təsnif edilməsi, problemin nəzəri əsaslarının müəyyən edilməsi;
2. Narkotik vasitələrdən istifadə edənlərin və narkotik maddələrin qəbulundan imtina edənlərin şəxsiyyət keyfiyyətlərində və idrak proseslərində baş verən dəyişikliklərin müəyyən edilməsi;
3. Narkotik vasitələrdən istifadə edənlərdə və narkotik maddələrin qəbulundan imtina edənlərdə yaranmış psixoloji problemlərin nəzəri və praktik əsaslarının şəxsiyyət yanaşması baxımından tədqiq edilməsi, müxtəlif yaş dövrlərində, sosial status və cinsi fərqlər fonunda xəstəliyin yaratdığı psixoloji fəsadların dəqiqləşdirilməsi;
4. Narkoman və narkotik maddələrin qəbulundan imtina edən şəxslərdə qeyri-adekvat davranış və idrak proseslərində baş verən pozuntuların aradan qaldırılması üçün olan optimal yol və vasitələrin axtarılıb tapılması, əldə olunan nəticələrin praktikaya tətbiqinin təşkil edilməsi.

**Tədqiqatın metodoloji əsasları və metodları**. Narkotik vasitələrdən istifadə edənlərin və narkotik maddələrin qəbulundan imtina edən şəxslərin davranışı olduqca mürəkkəb psixoloji dəyişilmə dinamikasına malik olduğundan tədqiqatda idrak fəaliyyətinin və davranışının tədqiqi ilə bağlı ümumpsixoloji konsepsiyalara istinad edilmişdir. Tədqiqatda PRMQ hafizə metodikasından və MMSE testindən və özünüqiymətləndirmə metodikasında

istifadə edilmişdir. Eksperimental-psixoloji tədqiqatın nəticələrinin emalında müasir riyazi-statistik kompyuter proqramından (SPSS-dən) və Kay Skvar statistik hesablama proqramından istifadə edilmişdir. Tədqiqatda 20-40 yaş arasında olan 100 nəfər narkotik maddə qəbul edən və 100 nəfər narkotik maddələrin qəbulundan imtina edən və 100 nəfər sağlam insan iştirak etmişdir. Tədqiqat İran İslam Respublikasında keçirilmişdir.

**Tədqiqatın elmi yeniliyi**. Tədqiqatda narkotik maddələrin qəbulu ilə əlaqədar psixi proseslərdə və davranışda müşahidə olunan dəyişikliklərin psixoloji mexanizmi araşdırılmış, narkomaniyanın yaranmasına təsir göstən amillər sistemləşdirilmiş, sağlam şəxslərin, narkotik vasitələrdən istifadə edənlərin və narkotik maddələrin qəbulundan imtina edənlərin davranışında və idrak proseslərində baş verən dəyişikliklər müqayisəli təhlil obyektinə çevrilmişdir.

Ilk dəfə olaraq bu tədqiqat işində:

- Sağlam şəxslərin, narkotik vasitələrdən istifadə edənlərin və narkotik maddələrin qəbulundan imtina edənlərin təhsil səviyyəsində, cəmiyyətdəki sosial statusunda, idrak proseslərinin inkişafında, ailədaxili münasibətlərində əhəmiyyətli fərqlərin olduğu müyyən edilmiş;
- Narkotik vasitələrdən istifadə edənlərin və narkotik maddə qəbulundan imtina edənlərin qeyri-adekvat özünüqiymətləndirməsinin psixoloji mexanizmləri araşdırılmış;
- Narkotik maddələrdən istifadə edən, narkotik maddələrin qəbulundan imtina etmiş və sağlam adamların ailədaxili münasibətlərində əhəmiyyətli fərq olduğu aydınlaşdırılmış, narkoman ailələrinin əksəriyyətinin öz övladları ilə səmimi və uyğun münasibətdə olmadığı müəyyən edilmişdir.

**Müdafiəyə təqdim olunan əsas müddəalar:**

- Sağlam adamlarla, narkotik vasitələrdən istifadə edənlərin və narkotik maddələrin qəbulundan imtina edən şəxslərin idrak fəaliyyəti və davranışı tərzi arasında əhəmiyyətli fərq mövcuddur.
- Narkotik vasitələrdən istifadə edənlərin və narkotik maddələrin qəbulundan imtina edən şəxslərin sosial statusu, davranış tərzi, tələbatları, idrak fəaliyyəti özünəməxsus xüsusiyyətlərə malikdir. Narkomaniyanın inkişafı müxtəlif amillərin təsir dərəcəsindən asılı olsa da, başlıca olaraq şəxsiyyət xüsusiyyətləri, özünənəzarətin aşağı səviyyəsi və koqnitiv proseslərdə baş verən ziddiyyətli məqamlarla səciyyələnir.
- Narkotik vasitələrdən istifadə edənlərin və narkotik maddələrin qəbulundan imtina edən şəxslərin idrak fəaliyyətinin və davranışının pozulması, özünüdərketmənin qeyri-adekvatlığı yalnış özünügerçəkləşdirməyə gətirməklə yanaşı, onlarda psixi pozuntunun səviyyəsini yüksəldir.
- Narkotik vasitələrdən istifadə edənlərin və narkotik maddə qəbulundan

imtina edən şəxslərin normal idrak fəaliyyətinin və adekvat davranışının bərpasında tibbi tədbirlərlə yanaşı, sosial-psixoloji treninqlərdən, autoanaliz və autogen məşqlərdən istifadə olunması zəruridir.

**Tədqiqatın nəzəri əhəmiyyəti**. Tədqiqatdan alınmış nəticələr ümumi və klinik psixologiyanı yeni biliklərlə zənginləşdirir. Bununla yanaşı, narkotik vasitələrdən istifadə edənlərin və narkotik maddə qəbulundan imtina edən şəxslərin idrak fəaliyyətində və davranışında baş verən dəyişikliklərin tədqiqi bu problemə bağlı tədqiqat və reabilitasiya işləri ilə məşğul olan mütəxəssislərin fəaliyyətində istifadə oluna bilər. Bununla yanaşı tədqiqatın nəticələrindən ümumi psixologiya və klinik psixologiyanın, eləcə də seçmə fənlərin tədrisində elmi-nəzəri mənbə kimi istifadə edilə bilər.

**Tədqiqatın praktik əhəmiyyəti**. Tədqiqatdan əldə olunmuş nəticələr narkotik vasitələrdən istifadə edənlərin və narkotik maddələrin qəbulundan imtina edən şəxslərin psixoterapiyasında, gənclərin sağlam həyat tərzi ilə bağlı tərbiyəsində istifadə oluna bilər. Yaradılmış konseptual əsaslar və tövsiyələr bu sahədə çalışan mütəxəssislərin praktik fəaliyyətində, maarifçilik işinin aparılmasında dəyərli mənbədir. Tədqiqat işinin materiallarından dərslik və dərs vəsaitlərinin hazırlanmasında və elmi işçilərin tədqiqat işlərində istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası.** Tədqiqatın əsas müddəaları Bakı Dövlət Universitetinin Psixologiya kafedrasında keçirilən seminarlarda və elmi-praktik konfranslarda müzakirə edilmişdir. Tədqiqatın əsas müddəaları onun məzmununu əhatə edən elmi məqalələrdə və tezislərdə öz əksini tapmış, bu yolla aprobasiyadan keçmişdir.

**Dissertasiya işinin quruluşu.** Dissertasiya işi giriş, 3 fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Girişdə** movzunun aktuallığı əsaslandırılır, tədqiqatın obyekti, predmeti, məqsədi, əsas fərziyyəsi, vəzifələri, metodoloji əsasları və metodları, elmi yeniliyi, nəzəri, praktik əhəmiyyəti və aprobasiyası haqqında məlumat verilir.

Dissertasiyanın **"Narkomaniya və onun tədqiqi istiqamətləri"** adlanan birinci fəsil iki yarımfəsildən ibarətdir. Birinci fəslin **"Narkomaniyanın psixoloji mahiyyəti"** adlanan birinci yarımfəslində göstərilir ki, psixoloji ədəbiyyatda narkotik madələrdən insanın əsəblərini süstləşdirən və onun həssaslığını azaldan maddələr kimi nəzərdən keçirilir. Bu istiqamətdə aparılan tədqiqatların nəticələrinin təhlilindən aydın olur ki, narkomanlarda müşahidə olunan müxtəlif fizioloji pozuntular, adi halda əsla nəzərə çarpmır.

Bu pozuntu beyin hüceyrələrinin məhv olması, hafizənin pozulması, ətraf mühitə qarşı diqqətsizlik, hərəkət sisteminin pozulması, özünənəzarətin zəifləməsi kimi əlamətlərdə özünü təzahür etdirir. Narkotik maddənin gündəlik qəbulundan 10-12 saat keçərsə bir sıra fizioloji proseslər- qarın ağrısı, qusma, asqırma, iştahasızlıq, burun və gözdən su axması, fəqərələrdə kəskin ağrı, əzələlərdə narahatlıq, yuxusuzluq, çox tərləmə, baş ağrısı, qıc olma və s. özünü göstərir. Bu yarımfəsildə belə qənaətə gəlinir ki, narkomaniyanın yaranmasının ilkin mərhələləri bilavasitə psixoloji amillərlə bağlıdır.

Dissertasiyanın **“Narkomaniya zamanı ortaya çıxan idrak pozuntuları”** adlanan birinci fəslinin ikinci yarımfəslində göstərilir ki, sağlam adamlarla müqayisədə narkomanlarda idrak proseslərində - perseptiv proseslərdə, mnemik proseslərdə və koqnitiv proseslərdə ciddi psixoloji dəyişilmələr baş verir. Xüsusilə də hafizə və təfəkkür prosseində normal olmayan hallar özünü göstərir, qavrama imkanları azalır, sensopatiyalar, hallüsinasiyalar baş verir. Bu yarımfəsildə idrak proseslərinin və onun pozuntularının təhlili verilir, ayrı-ayrılıqda həmin proseslərdə narkomaniya zamanı baş verən dəyişilmələr təsvir edilir. Bununla yanaşı, bu yarımfəsildə müxtəlif psixoloji məktəblərdə idrak proseslərinə yanaşmanın psixloji istiqamətləri göstərilir, narkomaniya zamanı dəyişilmənin xarakteri və onun fəaliyyətə təsiri mexanizmləri açılır. Burada qeyd edilir ki, insanın mühiti dərk etməsi həmişə reallıqlarla üst-üstə düşmür. Çox zaman biz reallığı olduğu kimi deyil, istədiyimiz kimi qavrayırıq. Bu istiqamətdə aparılmış tədqiqatlar göstərir ki, insanların dərk etməsində olan fərqlər onların xarakterı və davranış tərzi ilə əlaqədardır. Bu yarımfəsildə belə qənaətə gəlinir ki, insanın gerçəkliyi özünə uyğun görmək istəyi, onu narkomaniyaya təhrik edən amillərdəndir.

Dissertasiyanın **“Narkomanların idrak fəaliyyətinin pozulmasına təsir göstərən amillər”** adlanan ikinci fəsli iki yarımfəsildən ibarətdir. İkinci fəslin **«Narkomanlarda hafizə pozuntusunu yaradan səbəblər”** adlanan birinci yarımfəslində göstərilir ki, hafizə insanın psixi həyatının və onun şəxsiyyət kimi mövcudluğunun əsasını təşkil edir. Hafizə olmasaydı biz bir anlığın varlığına çevrilərdik və öyrəndiyimizdən də lazım gəldikdə istifadə etməyə qadir olmazdıq. Çünki xatırlamaq və tətbiq etmək üçün insana hafizə lazımdır. Hafizə, başqa sözlə desək, insanın bilik anbarı olaraq onun həyatında mühüm rol oynayır. Bu yarımfəsildə qeyd olunur ki, insan hafizəsi keçmiş təcrübələri yadda saxlama və onları yeri gəldikdə yadasalma prosesidir. Ümumiyətlə hafizə olmadan heç bir öyrənmə prosesi baş verə bilməz. Öyrəndiklərimizi daha yaxşı və daha tez yada salmaq istəsək, daha əlverişli xatırlama prosesi yaratmalıyıq. Hər hansı

bir problemi xatırlamadakı uğursuzluq hazırkı tələblə keçmiş təcrübə arasında əlaqə yarada bilməməkdən irəli gəlir. Yəni yada salmaq istədiyimiz problem müəyyən assosiasiyaya bağlanmalıdır. Bununla yanaşı, bu yarımfəsildə hafizə nəzəriyyələri təhlil olunur, hafizə proseslərinin hər biri ayrı-ayrılıqda diqqət mərkəzinə gətirilir, hafizənin insan həyatında rolu qeyd edilir. Həmçinin bu yarımfəsildə hafizənin öyrənilməsi metodları tədqiq edilir, yaddasaxlamanın və yadasalmanın psixoloji mexanizmləri göstərilir, narkomanlarda baş verən hafizə pozuntuları və onların korreksiyası yolları qeyd edilir. Göstərilir ki, narkomanlarda idrak prosesləri içərisində özünün pozuntularını daha çox təzahür etdirən hafizə pozuntularıdır.

Dissertasiyanın **"Narkoman şəxsiyyətinin səciyyəsi"** adlanan ikinci fəslinin ikinci yarımfəslində göstərilir ki, hər bir fərdin şəxsi keyfiyyətləri onun psixikasının sturukturundan asılıdır və bu da yeniyetməlik dövrünün sonlarında tam olaraq formalaşır. Bu baxımdan xəstə və ya sağlam olmasından asılı olmayaraq şəxsiyyətin strukturu dəyişməz qalır. Bir sıra tədqiqatçılar belə hesab edirlər ki, bəzi insanlar sanki narkotik maddə qəbul etməyə potensial şəkildə hazır olurlar. Onlar hesab edirlər ki, narkomaniyaya düçar olmanın ilkin vacib şərti həmin fərdin şəxsiyyətinin sturukturu ilə bağlıdır. Şübhəsiz ki, narkomaniyaya yoluxmağa potensial hazır şəxslər digərlərinə nisbətən daha çox narkoman olmaq təhlükəsinə düçar olmağa məhkumdurlar. Əlbəttə, fərdin həssaslıq səviyyəsi narkomaniyaya zəmin yaradır, lakin bu əsas şərt sayılmır. Çünki narkomanların davranışlarına diqqət yetirdikdə onların müxtəlif şəxsiyyət xüsusiyyətlərinə malik olduğunu müşahidə edə bilərik. Mühim bir cəhəti də qeyd etmək lazımdır ki, narkotik maddələrin qəbul etməməyin mahiyyətinin dərindən dərk edilməsi, belə vasitələrin istifadəsinə qarşı barışmaz mövqe insan sağlamlığının, şəxsiyyətinin şərəfinin, və ləyaqətinin qorunmasının başlıca vasitəsidir. Burada iradə möhkəmliyi, hissləri və sosial hissləri cilovlamağı bacarmaq qabliyyəti əsas amillərdən biridir. Aydındır ki, narkotik maddələrdən istifadə etmək üçün ən sensitiv mərhələ yeniyetməlik dövrüdür. Yəni, insanlar yeniyetməlik dövründə narkotik maddələrə daha çox meyl edirlər. Ona görə ki, yeniyetməlik dövrü uşaqlıqdan böyüklüyə keçməklə yanaşı, fərddə sosial identikliyin yaranması ilə xarakterizə olunur. Bu dövrdə yeniyetmələr uşaqlıq dövrünün sona çatdığını və böyüdüklərini hamıya nümayiş etdirməyə çalışırlar. Bu əlamətlər bütün yeniyetmələrin davranışında özünü biruzə verir. Yeniyetmələrə bu prosesdə yardım edilməzsə, o zaman onlar böyümələrini sübut etmək üçün qanunsuz əməllərə, o cümlədən narkotik maddə qəbuluna əl atacaqlar. Bu yarımfəsildə göstərilir ki, narkomanların digər xüsusiyyətlərindən biri də onların cəmiyyətə zidd şəxsiyyətləridir. Elə bu səbəbdən də

narkomanlar zövq almaq üçün onlara tapşırılan məsuliyyətli işlərdən boyun qaçırırlar. Psixoloji ədəbiyyatda narkomanların mühüm xüsusiyyəti kimi onların təqlidə meylli olmaları qeyd edilir. Narkoman sürətlə başqalarını təqlid edir. Bunun nəticəsində də başqalarının təsiri altına düşür. Daha çox təlqinə qapılaraq asılı davranışı qəbul edir. Onun məhz bu xüsusiyyəti tez yoldan çıxıb və narkoman olmasına zəmin yaradır. Ümumiyyətlə, cəmiyyətə zidd şəxsiyyət pozuntuları onları təbii olaraq ictimai prinsiplərin əksinə davranıb, bir sıra təhlükəli işlər törətmələrinə səbəb olur. Belə davranışlar narkotik vasitələrdən istifadə zamanı daha çox gerçəkləşir. Bu şəxslər yüksək şüura malik olduqda müəyyən bir qrupa rəhbərlik etməyə qadir olurlar. Yəni narkotikanın yayımında bir qrup rəhbəri kimi fəaliyyət göstərirlər. Onlar, ictimai şüuru zəif olan və zehni cəhətdən geri qalmış adamları bir qrup şəklində cəmləyib əhali arasında narkotik vasitələrin yayılmasını təşkil edirlər.

Dissertasiyanın ikinci fəslinin **“Müasir şəraitdə narkotik maddələrin qəbuluna meylin yaranmasının psixoloji səciyyəsi”** adlanan üçüncü yarımfəslində göstərilir ki, psixoloji ədəbiyyatda narkotik maddələrin qəbuluna yönəlmənin və narkomanlığın yaranmanın səbəblərinə dair müxtəlif fikirlər irəli sürümüşdür. Lakin bu fikirlərin heç biri insanın narkotik madələrdən istifadəsinin səbəblərini izah edə bilmir. Ümumiyyətlə, hər hansı bir pozuntu, o cümlədən narkomaniya, fərdlərin fizioloji və psixoloji müvazinətinin pozulması səbəbindən yaranan anormal davranışlar kimi təhlil olunur. Onun yaranmasında əsas amillər kimi isə genetik və mühit amilləri göstərilir. Bu yarımfəsildə qeyd edilir ki, anormal davranış insanın ətrafdakıların təzyiqlərinə qarşı bir növ cavab reaksiyasıdır və bu insanın həmin təzyiqlərə dözümünün səviyyəsinin göstəricisidir. Bu insanın dözümü sarsıldıqda o, həyatın çətinlikləri qarşısında acızləşir, sağlam ruh və sağlam psixika ilə həyatını davam etdirməyə qadir ola bilmir. Bunun nəticəsində pozuntu, anormal və xoşagəlməz davranışlar özünü göstərir.

Qeyd edək ki, insanların mühitə və həyata baxışı fərqli olduğuna görə , bəzi şəxslər həyatın çətinliklərinə, dözümlü olur, bəziləri isə bu çətin şərait qarşısında zəiflik və acizlik göstərərək psixi və ruhi müvazinətləri pozulur və özlərini itirlər. Onlar ümidsiz və həyatdan razı olmayan şəxslərə çevrilirlər. Bu isə onların narkomana çevrilməsinə səbəb olur. Narkoman onu narahatlıq gətirən problemlərindən qaçmaq üçün hansısa sığnacaq axtarır. Bu baxımdan narkomanların əksəriyyətində mənəvi boşluq və şəxsiyyət pozuntuları müşahidə olunur. Cəmiyyətdə fiziki baxımdan başqalarından fərqlənən, o cümlədən qüsur və nöqsanlara malik əlillər cəmiyyət tərəfindən fərqli davranışlara məruz qalırlar və bunun nəticəsi olaraq özlərini əhəmyətsiz və yararsız bir şəxs kimi hiss edirlər. Cəmiyyət üzvlərinin onlara lazımsız bir varlıq kimi baxması, onlardan

uzaqlaşmaları, anormal davranışlar onları psixoloji təzyiqə məruz qoyur. Bu baxımdan çox zaman özlərində yaranmış streslərini boşaltmaq üçün narkomaniyaya meyl edirlər. Bu yarımfəsildə narkomaniyanın yaranmasına təsir göstərən müxtəlif amillər təhlil edilir və həmin təsirlərin vaxtında aradan qaldırılmasının yol və vasitələri qeyd edilir. Göstərilir ki, şəxsiyyətin xarakter xüsusiyyətlərində, idrak proseslərində, həyat tərzində, motivasiya-tələbatlar sistemində, özünüqiymətləndirməsində köklü dəyişikliklər müşahidə olunursa onların narkomaniyaya meylliyi ortaya çıxa bilər və onlar risk qruplarına daxildirlər.

Dissertasiyanın ikinci fəslinin **"Narkomanlığa qayıdışın səbəbləri və onun qarşısının alınması yolları "** adlanan dördüncü yarımfəslində göstərilir ki, narkoman fiziki cəhətdən zəif və aciz bir varlıq olmaqla yanaşı, psixoloji baxımdan fantaziyalar aləmində yaşayan, həyatın gerçəklikləri və ətrafında baş verən həqiqətlərdən tam uzaq və onlara ögey münasibət bəsləyən, iradəsiz və laqeyd bir insandır. Belə şəxslər narkotik maddədən uzaqlaşmaq istəsələr belə, çox həssas xüsusiyyətlərə malik olduqlarına görə, kimsə, yəni ailə, dostlar və s. tərəfindən onların istəyinə qarşı çıxarlarsa, onun inciməsinə səbəb olan kiçik bir hərəkətə yol verərlərsə, onlardan uzaqlaşaraq bu problemlərin həlli yolu kimi yenə də narkotik maddələrdən istifadə etməyə başlayacaqlar. Narkotik maddədən istifadədən imtina etməyin ən yaxşı yolu, narkoman olan şəxsin düşdüyü vəziyyəti etiraf etməsi və həyatında baş vermiş bütün fəlakətlərin və hadisələrin səbəbinin narkotik maddə olduğunu başa düşməsi və özünün belə vəziyyətdən çıxmağı istəməsinə əmin olmasıdır. Əks halda həkimin, ailənin, dostların, qohumların onu narkomanlıqdan qurtarmaq cəhdləri, həmçinin, cəzalandırma, həvəsləndirmə və s. kimi tədbirlərin heç biri effektiv olmayacaqdır. Lakin dünyada narkomaniyaya qarşı aparılan mübarizənin məqsədi, onların yenidən narkotik vasitələrdən istifadə etməmələri üçün ilkin mərhələdə fiziki və psixoloji baxımdan müalicə olunmaları, ikinci mərhələdə isə narkomanların müalicəsi üçün şəraitin yaxşılaşdırılması, yəni müalicə mərkəzlərinin və klinikaların artırılması zəruridir.

Dissertasiyanın **"Narkomaniya və onun eksperimental-psixoloji tədqiqi"** adlanan üçüncü fəsil iki yarımfəsildən ibarətdir. Üçüncü fəslin **«Tədqiqatin təşkili və keçirilməsi"** adlanan birinci yarımfəslində tədqiqatda iştrak edənlərin sayı göstərilir və tədqiqatın metodikası təsvir edilir.

Dissertasiyanın üçüncü fəslinin **«Nəticələrin işlənməsi"** adlanan ikinci yarımfəslində aparılmış tədqiqatın nəticələri şərh edilir.Tədqiqat zamanı ilkin olaraq yaş qrupları üzrə narkoman, narkotik maddələrin qəbulundan imtina etmiş və sağlam adamların müqayisəsi aparılmışdır.

Narkoman, narkotik maddələrin qəbulundan imtina etmiş və sağlam adamların yaş qrupları üzrə müqayisəsi

Cədvəl 3.1.

| Yaş qrupu | Sağlam (nəfər) | Narkotik maddələrin qəbulundan imtina etmiş (nəfər) | Narkoman (nəfər) | Cəmi (nəfər) |
|---|---|---|---|---|
| 21-25 | 47 | 53 | 35 | 135 |
| 26-30 | 29 | 38 | 34 | 101 |
| 31-35 | 15 | 7 | 17 | 39 |
| 36-40 | 9 | 2 | 14 | 25 |
| Cəmi | 100 | 100 | 100 | 300 |

Cədvəl 3.1-dən göründüyü kimi tədqiqata cəlb olunmuş 100 nəfər sağlam adamlardan 47 nəfəri 21-25 yaş qrupunda, 29 nəfər 26-30 yaş qrupunda, 15 nəfər 31-35 yaş qrupunda, 9 nəfəri isə 36-40 yaş civarındadırlar.100 nəfər narkotik vasitələrdən imtina edənlərin 53 nəfər 21-25, 38 nəfəri 26-30, 7 nəfər 31-35, 2 nəfər isə 36-40 yaş civarında olan şəxslərdir.100 nəfər narkotik vasitələrdən istifadə edənlərin 35 nəfər 21-25, 34 nəfər 26-30, 17 nəfər 31-35, 14 nəfəri isə 36-40 yaş civarındadırlar.

Kay Skvar statistik hesablama üsulu vasitəsilə narkoman, narkotik maddələrin qəbulundan imtina etmiş və sağlam adamlar arasında yaş qruplarının müqayisəsi

Cədvəl 3.2

| Statistik üsul | Miqdar | Sərbəstlik dərəcəsi | Əhəmiyyətlilik səviyyəsi |
|---|---|---|---|
| Kay Skvar | 1.202 | 6 | 0.071 |

Cədvə 3.2-dən görünür ki, narkotik maddələrin qəbulundan imtina etmiş və sağlam adamlarda yaş qruplarının çoxluğu arasında əhəmiyyətli fərq yoxdur ($x^2$ = 1.020, $p>0.05$), başqa sözlə narkoman, narkotik maddələrin qəbulundan imtina etmiş və sağlam adamlar yaş baxımından analoji vəziyyətdədirlər.

Kay Skvar statistik hesablama üsulu vasitəsilə narkoman, narkotik maddələrin qəbulundan imtina etmiş və sağlam adamlar arasında ailə vəziyyətinin müqayisəsi

Cədvəl 3.3.

| Statistik üsul | Miqdar | Sərbəstlik dərəcəsi | Əhəmiyyətlilik |
|---|---|---|---|

| | | | səviyyəsi |
|---|---|---|---|
| Kay Skvar | 12.67 | 6 | 0.028 |

Cədvəl 3.3-dən görünür ki, narkoman, narkotik maddələrin qəbulundan imtina etmiş və sağlam adamlar arasında ailə vəziyyəti baxımından əhəmiyyətli fərqlər vardır ($x^2$ = 12.67, $p<0.05$), başqa sözlə narkomanlarda boşanma və ayrılma halları sağlam və narkotik maddələrin qəbulundan imtina etmiş adamlarla müqayisədə daha çoxdur.

Kay Skvar statistik hesablama üsulu vasitəsilə narkoman, narkotik maddələrin qəbulundan imtina etmiş və sağlam adamlar arasında təhsil səviyyəsinin müqayisəsi

Cədvəl 3.4

| Statistik üsul | Miqdar | Sərbəstlik dərəcəsi | Əhəmiyyətlilik səviyyəsi |
|---|---|---|---|
| Kay Skvar | 10.43 | 6 | 0.034 |

Cədvəl 3.4-ün təhlili göstərir ki, narkoman, narkotik maddələrin qəbulundan imtina etmiş və sağlam adamlar arasında təhsil baxımından əhəmiyyətli fərq vardır ($x^2$ = 10.43, $p<0.05$). Tədqiqat göstərir ki, sağlam adamların 22% və narkotik maddələrin qəbulundan imtina etmiş 20% orta məktəbi bitirmişlər. Narkotik vasitələrdən imtina edənlərin isə cəmi 7% orta məktəbi bitirmiş, 21% isə ibtidai məktəbi bitirməmişlər. Halbuki, orta məktəbi bitirməyən sağlam admlar 7%, narkotik maddələrin qəbulundan imtina etmiş adamlar isə 11% i təşkil edir. Bu o deməkdir ki, narkomanların təhsil səviyyəsi digər iki qrupa nisbətən daha aşağıdır.

Narkoman, narkotik maddələrin qəbulundan imtina etmiş və sağlam adamların məşğuliyyətinin müqayisəsi

Cədvəl 3.5.

| Məşğuliyyət | Sağlam (% ifadəsi) | Narkotik vasitələrin qəbulundan imtina etmiş (% ifadəsi) | Narkoman (% ifadəsi) |
|---|---|---|---|
| Sənaye | 28 | 30 | 9 |
| Dükançı | 25 | 21 | 4 |
| Əkinçi | 3 | 2 | 3 |
| Aralıq satıcısı | 20 | 18 | 35 |
| Fəhlə | 15 | 13 | 21 |
| Işsiz | 9 | 16 | 28 |
| Cəmi | 100 | 100 | 100 |

Cədvəl 3.5-in nəticələrindən aydın olur ki, 100 sağlam adamdan 28% sənayedə, 25% mağazada, 3% əkinçilikdə, 20% aralıq satıcılığında, 15% fəhləlikdə çalışır, 9% isə işsizdir. 100 nəfər narkotik maddələrin qəbulundan imtina etmiş adamdan 30% sənayedə, 21% mağazada, 2% əkinçilikdə, 18% aralıq satıcılığında, 13% fəhləlikdə çalışır, 16% isə işsizdir. 100 nəfər narkomandan 9% sənayedə, 4% mağazada, 3% əkinçilikdə, 35%i aralıq satıcılığında, 21% fəhləlikdə çalışır və 28% isə işsizdir.

Kay Skvar statistik hesablama üsulu vasitəsilə narkoman, narkotik maddələrin qəbulundan imtina etmiş və sağlam adamların məşğuliyyətinin müqayisəsi

Cədvəl 3.6

| Statistik üsul | Miqdar | Sərbəstlik dərəcəsi | Əhəmiyyətlilik səviyyəsi |
|---|---|---|---|
| Kay Skvar | 10.43 | 6 | 0.005 |

Cədvəl 3.6-nın təhlili göstərir ki, məşğuliyyət növü baxımından tədqiq olunanlar arasında əhəmiyyətli fərq vardır ($x^2$ = 10.43, p<0.01). Başqa sözlə, narkoman adamların münasib və gəlirli işləri yoxdur. Belə ki, cəmi 9% sənayedə və 4% mağaza sahibidir, 84% isə aralıq satıcısı, fəhlə və işsizdir. Onların gəliri sağlam və narkotik maddələrin qəbulundan imtina etmiş adamlarla müqayisədə aşağıdır.

Kay Skvar statistik hesablama üsulunun nəticələrinə görə narkoman və narkotik maddələrin qəbulundan imtina etmiş adamların narkomaniyaya qoşulma səbəblərinin müqayisəsi

Cədvəl 3.7

| Statistik üsul | Miqdar | Sərbəstlik dərəcəsi | Əhəmiyyətlilik səviyyəsi |
|---|---|---|---|
| Kay Skvar | 16.27 | 10 | 0.043 |

Cədvəl 3.7-dən görünür ki, narkoman və narkotik maddələrin qəbulundan imtina etmiş adamların narkomaniyaya qoşulma səbəbləri arasında əhəmiyyətli fərq vardır ($x^2$ = 16.27, p<0.05). Belə ki, narkomanların 17% biliksizlik ucbatından fiziki qüvvəni gücləndirmək üçün narkomaniyaya meyl etmişlər. 14% ailədə narkomanın olmasını, 6% isə ailə nəzarətinin olmasını narkomaniya meylin əsas səbəbi hesab edirlər. Narkotik maddələrin qəbulundan imtina etmiş adamların çoxu isə bunun səbəbini öz dostlarında görürlər.

Kay Skvar statistik hesablama üsulu vasitəsilə narkoman və narkotik maddələrin qəbulundan imtina etmiş adamların narkotik maddə qəbulu müddəti baxımından müqayisəsi

Cədvəl 3.8

| Statistik üsul | Miqdar | Sərbəstlik dərəcəsi | Əhəmiyyətlilik səviyyəsi |
|---|---|---|---|
| y Skvar | 13.41 | 6 | 0.029 |

Cədvəl 3.8-ın təhlili göstərir ki, narkoman və narkotik maddələrin qəbulundan imtina etmiş adamların narkotik maddə qəbulu müddəti baxımından əhəmiyyətli fərq vardır ($x^2 = 13.41$, $p<0.05$). Cədvəl 3.9-dan göründüyü kimi narkomanların 22% yenidən narkomaniyaya qayıtmağın səbəbini ailə dəstəyinin olmaması, ailə diqqətindən kənarda qalması, hətta ailə tərəfindən atıldığında görür. 14% ailədə narkomanların olduğunu (ata, qardaş, əmi, dayı, və, b.) əsas səbəb kimi qeyd edərək bildirirlər ki, onlarla daimi təmasda olduqlarına görə narkotik maddələrdən imtina etməyə qadir olmamışlar. 13% həyatın çətinliyini və ona qatlaşa bilmədiklərini narkomaniyaya qayıdışın əsas səbəbi hesab edirlər. 13% onun ətrafını alan yaramaz dostları əsas səbəb bilirlər. 12% işsizliyi, 11% narkomaniyadan zövq almağı deyil, ona bağlılığı əsas amil hesab edirlər. 8% bildirir ki, narkotik maddələrin qəbulunun təsiri altına düşmək elə də çətin deyildir. 7% narkomaniyanı dərdləri sağaldan və fiziki qüvvəni çoxaldan bir dərman bilir və qorxurlar ki, onun qəbulunu dayandırsalar fiziki qüvvələri azalar.

Narkomaniyaya qayıdışın səbəbləri

Cədvəl 3.9

| Narkomaniyaya qayıdışın səbəbləri | Say (% ifadəsi) |
|---|---|
| Ailə dəstəyinin olmaması | 22 |
| Ailənin narkoman olması | 14 |
| Yaşayışın çətinliyi | 13 |
| Narkoman dostlar | 13 |
| Işsizlik | 12 |
| Narkomaniyaya bağlılıq | 11 |
| Narkotik maddələrin qəbuılunun təsirinə asanlıqla düşmək | 8 |
| Fiziki qüvvəsini itirmək qorxusu | 7 |
| Cəm | 100 |

Kay Skvar statistik hesablama üsulunun nəticələrinə görə narkomaniyaya qayıdışın səbəblərinin müqayisəsi

Cədvəl 3. 10

| | Miqdar | Sərbəstlik dərəcəsi | Əhəmiyyətlilik səviyyəsi |
|---|---|---|---|
| Kay Skvar | 10.46 | 7 | 0.048 |

Cədvəl 3.10-nun nəticələrinin təhlil göstərir ki, yenidən narkomaniyaya qayıdan adamların arasında əhəmiyyətli fərq vardır ($x^2 = 10.46$, $p<0.05$). Belə ki, narkomanların əksər hissəsi yenidən qayıdışlarının əsas səbəbini

ailənin onlara kömək etməməsində görür. Onların 7% narkomaniya haqqında biliklərə malik olmadıqlarını və onun möcüzəli bir maddə olduğu fikrini qayıdışlarının əsas səbəbi hesab edirlər.

Cədvəl 3.11 əsasən sağlam adamların orta qiyməti 14.66-ya bərabərdir və minimum 12-dən maksimum 19-dək dəyişir. Narkotik maddələrin qəbulundan imtina etmiş adamların orta qiyməti 17.27-yə bərabərdir və minimum 14-dən maksimum 24-dək dəyişir. Narkoman adamların orta qiyməti 21.88-ə bərabərdir və minimum 17-dən maksimum 28-dək dəyişir. Yəni narkotik maddələrin qəbulundan imtina etmiş adamların hafizə qiyməti əhəmiyyətli dərəcədə narkomanlardan azdır.

Narkoman, narkotik maddələrin qəbulundan imtina etmiş və sağlam adamların hafizə qiymətlərinin statistik göstəriciləri

Cədvəl 3.11

| | Say | Orta göstərici | Normadan yayınma | Minimum | Maksimum |
|---|---|---|---|---|---|
| Sağlam adamlar | 100 | 14.6600 | 1.59684 | 12.00 | 19.00 |
| Narkotik maddələrin qəbulundan imtina edənlər | 100 | 17.2700 | 1.81940 | 14.00 | 24.00 |
| Narkomanlar | 100 | 21.8800 | 2.06109 | 17.00 | 28.00 |

Narkoman, narkotik maddələrin qəbulundan imtina etmiş və sağlam adamlarda orta xarici hafizənin müqayisəsi üçün variyasiya analizi (ANOVA)

Cədvəl 3.12

| Variasiya analizi | F miqdarı | Sərbəstlik dərəcəsi | Əhəmiyyətlilik səviyyəsi |
|---|---|---|---|
| ANOVA | 396.672 | 2 | .000 |

Narkomanların yaş qruplarına əsasən psixi vəziyyətinin (SCL-90R) müqayisəsi

Cədvəl 3.13

| Psixi vəziyyət | Yaş qrupu | | | | F miqdarı | Əhəmiyyətlilik səviyyəsi |
|---|---|---|---|---|---|---|
| | 21-25 | 26-30 | 31-35 | 36-40 | | |
| Xəstəlik duyğusuna qapılma | 23.65 | 24.31 | 24.18 | 24.43 | 0.36 | 0.78 |
| Vasvasılıq | 20.09 | 20.31 | 20.94 | 19.64 | 1.76 | 0.16 |
| Həssaslıq | 19.62 | 20.03 | 19.65 | 19.14 | 1.65 | 0.18 |
| Özünə qapılmaq | 26.76 | 26.37 | 27.24 | 27.54 | 2.93 | 0.042 |
| Iztirab | 22.38 | 22.29 | 22.65 | 22 | 0.42 | 0.74 |
| Acıqlıq | 11.56 | 11.06 | 11.29 | 11.29 | 2.37 | 0.04 |
| Qorxular | 20.85 | 20.74 | 20.29 | 20.29 | 1.77 | 0.16 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Paronoya | 14.5 | 14.23 | 14.24 | 14.5 | 0.47 | 0.7 |
| Psixoz | 20.92 | 20.03 | 20.29 | 19.7 | 2.28 | 0.02 |

Cədvəl 3.13-də aydın olur ki, narkomanlara tətbiq edilən SCL-90R testinə görə özünə qapılmaq, acıqlılıq və psixoz faktorları baxımından yaş qrupları arasında əhəmiyyətli fərqləri vardır ($p<0.05$). Bütün bunlar göstərir ki, narkomaniyaya meyllikdə yaş amili əsas amillərdən biridir.

Apardığımız tədqiqat və ədəbiyyatın təhlili bizə aşağıdakı **nəticəyə** gəlməyə imkan verir.

- Müəyyən edildi ki, narkomaniya tibbi və psixoloji təsnifata görə xəstəlikdir və onun kökü insanlarda psixi pozuntunun yaranması və şəxsiyyətin zəif xarakter əlamətlərinin olmasından qaynaqlanır. Narkoman onu narahatlıq gətirən problemlərindən qaçmaq üçün hansısa sığnacaq axtarır. Bu baxımdan narkomanların əksəriyyətində mənəvi boşluq və şəxsiyyət pozuntuları müşahidə olunur.
- Aparılmış tədqiqatlar göstərdi ki, ailənin zəif nəzarəti fonunda narkomaniyanın əmələ gəlməsinə səbəb olan amillərdəndir. Ailələrin öz övladlarına həddən artıq etibarı onların davranışına nəzarəti zəiflədir. Uşaqların davranışına və kimlərlə dostluq etmələrinə belə bir nəzarətsizlik və laqeydlik, övladların necə gəldi davranmalarına və onların küçə qruplarının üzvünə çevrilmələrinə və sonda onların narkomanlığa qurşanmalarına səbəb olur.
- Aydın oldu ki, narkotikadan istifadəyə təsir göstərən mühim amillərdən biri də insanın fərdi-psixoloji xüsusiyyətləridir. İnsanlar bir-birindən həm fiziki, həm də psixi baxımdan fərqli xüsusiyyətlərə malikdirlər. Lakin fərdi-psixoloji xüsusiyyətlərdəki fərqləri onların cəmiyyətlə əlaqə qura bilməsinə mane olacaq qədər olduqda, son nəticədə insanın tənha olmasına və özünə qapılmasına səbəb olur. Bu vəziyyətdən çıxış və psixoloji tarazlığın bərpası üçün insanlar narkomaniyaya meyl edirlər.
- Eksperimentlər göstərdi ki, vasvasılıq, özünə qapanma, depressiya və psixotik əlamətlərlə narkotikdən istifadənin müddəti arasında əhəmiyyətli əlaqə vardır.Belə ki, narkotik maddələrdən istifadə müddəti 12 idən çox olan adamlarda vasvasılıq, özünə qapılma, depressiya və psixotik əlamətlər 1-3il müddətdə narkotikdən istifadə edənlərdən daha çoxdur.
- Aydın oldu ki, sağlam adamlarda narkomanlara nisbətən hafizə prosesləri xüsusilə də xatırlama bacarığı daha yüksəkdir. Narkoman adamlarda hesablama bacarığının qiyməti mənalı dərəcədə sağlam və narkotik maddələrin istifadəsindən imtina etmiş adamlardan dəfələrlə azdır.
- Eksperimentlər göstərdi ki, sağlam adamların məkanı qavrama istiqaməti və hesablama bacarığı narkoman və narkotik maddələrdən imtina etmiş

adamlardan çoxdur. Bu fakt onu göstərir ki, narkomaniya idrak proseslərinin və davranış tərzinin qeyri-adekvat təzahürühə, bir çox hallarda isə onun deformasiyasına gətirib çıxarır.

- Aydın oldu ki şəxsi problemlərin olması və psixi pozuntu da narkomaniyanın yaranmasına təsir göstərən şərtlərdən biridir. Bu baxımdan ümüdsüzlük , gələcəklə bağlı pessimist düşüncələr ən çox özünü göstərən psixi pozuntudur. Bu baxımdan ümüdsizliyə düçar olan insanlar çıxış yolu kimi narkotik maddələrdən istifadə eəd bilərlər. Eyni zamanda fziki problemlər və xroniki ağrılarda narkomaniya üçün əlverişli şərait yaradır. Bəzi fiziki problemlərin olması, o cümlədən oynaqlarda (beldə disk, boyunda, dizdə və çıyındə artroz) problem və baş ağrısı, miqren və sair kimi xroniki ağrılar, şəxsləri, ağrıları kəsilsin deyə, narkotik maddələri qəbul etməyə istiqamətləndirir.

- Aydın oldu ki, asosial normalarla yaşayan ailə də narkomaniyaya münbit şərait yaradır. Asosial ailə öz üzvlərinin davranışında pozuntu yarada bilər və ailə üzvlərini narkomanlığa təhrik edə bilər.

Dissertasiyanın əsas müddəaları müəllifin aşağıdakı **əsərlərində** öz əksini tapmışdır:

1.Psixologiyada məsləhət xidməti və narkomanlarla işdə onun əhəmiyyəti // Psixologiya jurnal, Bakı,2009, №3,s.180-195

2. Narkoman şəxsiyyətinin səciyyəsi // Psixologiya jurnalı, Bakı, 2010, №1, s.53-60

3.Müasir şəraitdə narkotik maddələrin qəbuluna meylin yaranmasının psixoloji səciyyəsi // Blimsel eksen ,Ankara ,2010, №1,s.44-52

4.Damage the memory as a result overusing of drugs // Изденис Поиск, Алмата, 2011, №1,s.322-326

5.Ailədə narkomaniyaya qarşı tərbiyə üsulları // AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun Elmi əsərləri, Bakı, 2010, №1,2(15), s.165-174

6.Narkomanların davranışının psixoloji səciyyəsi // Psixologiya jurnalı, Bakı, 2010, №4, s.54-63

7.Narkomanlığa qayıdışın səbəbləri və onun qarşısının alınması yolları // AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun Elmi əsərləri, Bakı, 2011, №1(16), s.201-214

8.Психологические, повиденческие и личностные отклонения при наркомании // Вектор науки, Толяти, 2011, № 4(7), с.219-222

9.Narkomaniyanın tərifi / Qloballaşma şəraitində sosial problemlərin həlli yolları. Bakı:2012, s.173-178

10. Формы отклонений и наркомании / Социално-экономические проблемы современного общества. Пенза-Прага- Белосток: 2012, с. 70-

72

**Жаля Гусейн гызы Пашмфоароуш**

## Психологические особенности взаимовлияния познавательной деятельности и поведения наркоманов

## РЕЗЮМЕ

Диссертационная работа посвящена одной из актуальных проблем современной психологической науки – изучению психологических особенностей взаимовлияния познавательной деятельности и поведения наркоманов.

В условиях демократизации общества ведутся поиски оптимальных путей всестороннего развития личности, ее формирования в соответствии с современной реальностью. Однако, на фоне недочетов в воспитательном процессе и ослабления контроля над поведением молодежи, наркомания, являющаяся бичом нашего времени, преграждает формирование полезной для общества личности, уводя ее в сторону преступления и анормальным формам поведения. С этой точки зрения проблема психологических особенностей взаимовлияния познавательной деятельности и поведения наркоманов вызывает особый интерес. Диссертация состоит из введения, трех глав, заключения и списка использованной литературы.

Во введении обосновываются актуальность, степень изученности, гипотезы, научно-практическое значение и новизна исследования, в том числе сформулированы методологические основы.

Первая глава диссертации называется **«Наркомания и направления ее исследования».** В этой главе проводится анализ психологической сущности наркомании и нарушений сознания наркомана, фокусируется внимание на исследованиях, посвященных данной проблеме. Здесь обращается внимание на историю изучения вопроса, обобщаютя исследования в данном направлении, отмечаются объективные и субъективные причины возникновения наркомании.

Вторая глава диссертации под названием **«Факторы, ведущие к нарушениям познавательной деятельности наркоманов»** посвящена анализу познавательной деятельности наркоманов, особенностей нарушения памяти при наркомании, психологические характеристики поведения наркоманов и появления у них пристрастия к приему наркотиков в современных условиях, а также причины повторного пристрастия к наркомании и пути их искоренения.

Третья глава диссертации называется **«Наркомания и ее экспериментально-психологическое исследование».** Здесь автор касается факторов, являющихся причиной наркомании, указывает на пути и средства их искоренения. В данной главе прокомментированы также результаты прведенного эксперимента. Автор приходит к выводу, что существуют различные факторы появления наркомании, среди которых вахную роль играют уровень образования, внутрисемейные отношения, личностно-психологические качества, возникновение у личности духовно-психологического вакуума.

В заключение диссертации обобщаются освновные результаты исследования. Здесь отмечается, что существуют значительные отличия между познавательной деятельностью и поведением лиц, не принимающих наркотики, и лиц, отказавшихся от приема наркотиков.

**Jale Huseyn Pashmfoaroush**

## Psychological features of interference of informative activity and behaviour of addicts

## SUMMARY

Dissertational work is devoted to one of actual problems of a modern psychological science to studying of psychological features of interference of informative activity and behaviour of addicts.

In the conditions of society democratisation searches of optimum ways of an all-around development of the person, its formation according to a modern reality are conducted. However, against defects in educational process and control easings over behaviour of youth, the narcotism which is a scourge of our time, blocks formation of the person useful to a society, withdrawing it towards a crime and to abnormal forms of behaviour. From this point of view the problem of psychological features of interference of informative activity and behaviour of addicts causes special interest. The dissertation consists of the introduction, three heads, the conclusion and the list of the used literature.

In introduction the urgency, degree of a level of scrutiny, a hypothesis, scientifically-practical value and novelty of research are proved, including methodological bases are formulated.

Dissertation's 1st chapter is called **«The Narcotism and directions of its research».** In this chapter the analysis of psychological essence of a narcotism and infringements of consciousness of the addict is carried out, the attention to the researches devoted to the given problem is focused. Here the attention to history of studying of a question, generalization of researches in the given direction is paid, the objective and subjective reasons of occurrence of a narcotism are marked.

The 2nd chapter of the dissertation under the name **«The Factors conducting to infringements of informative activity of addicts»** is devoted the analysis of informative activity of addicts, features of infringement of memory at a narcotism, psychological characteristics of behaviour of addicts and occurrence in them of predilection for a drug taking in modern conditions, and also the reasons of repeated predilection for a narcotism and a way of their eradication.

The 3rd chapter of the dissertation is called **«The Narcotism and its experimentally-psychological research».** Here the author concerns the

factors which are the reason of a narcotism, specifies in ways and means of their eradication. In the given chapter results прведенного experiment are commented also. The author comes to conclusion, that there are various factors of occurrence of a narcotism among which an important role play an educational level, intrafamily relations, lichnostno-psychological qualities, occurrence at the person of spiritually-psychological vacuum.

In the conclusion part of the dissertation are generalised base results of research. Here it is noticed, that there are considerable differences between informative activity and behaviour of the persons who are not accepting drugs, and the persons who have refused a drug taking.